# Beşik kökümüzdür...

## Bəxtiyar Vahabzadə yaradıcılığında uşaq folkloruna xüsusi həssaslıqla yanaşılır

**Müasir Azərbaycan ədəbiyyatında öz dəst-xətti ilə seçilən Xalq şairi, ictimai xadim Bəxtiyar Vahabzadə daim xalqla bir yerdə olmuş, ədəbiyyatın inkişafı naminə böyük xidmətlər göstərmişdir. Xalq ruhuna bağlı olan şair əsərlərində şifahi xalq ədəbiyyatının nümunələrindən bəhrələnmiş və bunu yaradıcılığında əks etdirmişdir.**



Bəxtiyar Vahabzadə öz əsərlərində, demək olar ki, folklorun bütün janrlarından istifadə etmişdir. O cümlədən uşaq folkloruna da yer vermişdir. Bəxtiyar Vahabzadə uşaq yaradıcılığına xüsusi həssaslıqla yanaşmışdır. Belə ki, uşaqların beşikdən məktəb yaşına qədər olan dövrünü poetik epizodlarla əks etdirmişdir. Qeyd edək ki, "uşaq folkloru" dedikdə hər şeydən əvvəl şifahi xalq ədəbiyyatının böyüklər və uşaqlar tərəfindən yaradılan elə nümunələri nəzərdə tutulur ki, onlar uşaqlara həsr olunsun. Bunların içərisində uşaq oyunları xüsusi yer tutur. Müəllif yaradıcılığında xüsusi başlıq şəklində "tapmacalar", "sınamalar", "nağıllar" və s. janrlardan nümunələr vermişdir.

Zahid Xəlil "Bəxtiyar Vahabzadə və uşaq ədəbiyyatı" məqaləsində Bəxtiyar Vahabzadənin uşaq ədəbiyyatı ilə bağlı əsərlərini mövzularına görə 3 qrupa bölmüşdü :

1) Vətən, övlad, ata-ana sevgisinə həsr olunan poetik nümunələr;
2) Məktəblə, təhsillə, elm öyrənməklə bağlı şeirlər;
3 )Yumorla yazılan, kiçik yaşlı uşaqlara ünvanlanan əsərlər.

Bəxtiyar Vahabzadənin uşaqlarla bağlı şeirləri aşağıdakılardır:

"Beşik", "Mənim ad günlərim", "Anam təzədən böyüyür", "Ana hədiyyəsi".

Uşaq folklorunun geniş yayılmış janrlarından biri də laylalardır. Laylalar anaların körpəsini yuxuya vermək, bəsləmək, əzizləmək, gəzdirmək, dilini açmaq və s. ilə əlaqədar oxuduqları nəğmələrdir. Laylalar beşik nəğmələridir. Bu nümunələr hələ dil açmamış körpələr üçün ahəngdar bir ritmlə oxunur. "Beşik" şeirində aşağıdakı layla verilmişdir :

*İnsanın insana məhəbbətini, ey beşik,*
*İlk dəfə biz səndə duyduq.*
*Dünyanın zövqünü , səadətini*
*Ananın o ilıq səsində duyduq.*
*Laylay dedim yatasan,*
*Qızılgülə batasan.*
*Qızılgüllər içində*
*Şirin yuxu tapasan.*

Beləliklə, "birinci yaş dövrünə daxil olan uşaq folkloru nümunələrinin yaradıcısı analardır".

*Bizim anaların laylalarından*
*Axdı ruhumuza Vətənin özü*
*Beşik kökümüzdür... ucalıb ordan*
*Tanıdaq dünyaya öz kökümüzü.*

Bədnəzərdən qorunmaq üçün xalq arasında tarixən bir çox inanclar yaranmışdır. Onlardan göz muncuğunu və üzərliyi nümunə göstərə bilərik. Bəxtiyar Vahabzadə "Beşik" şeirində analarımızın öz körpəsini bədnəzərdən, şər ruhlardan qorumaq üçün bu vasitələrdən istifadə etməsini ustalıqla vermişdir:

*Qara gözmuncuğu sol biləyimdə*
*Beşiyin üstündə üzərlik, Quran*
*Anam qoruyardı məni bunlarla*
*Dünyanın hər cürə bəlalarından.*

Xalq arasında üzərliyin qoruyucu - mifik xüsusiyyəti aşağıdakı nümunədə verilmişdir:

*Üzərliksən, havasan*
*Hər bir dərdə dəvasan.*
*Balama göz dəyənin*
*Gözlərini ovasan.*

Beləliklə, şifahi xalq yaradıcılığı yazılı ədəbiyyat üçün daim qaynaq olmuş, istər böyüklər, istərsə də uşaqlar üçün yaradılmış folklor nümunələri bədii əsərləri daha da zənginləşdirmişdir.

Bəxtiyar Vahabzadə "Anam təzədən böyüyür" şeirində qızına öz anasının adını qoyduğunu vurğulamışdır. Sanki o, anasının bütün müsbət xüsusiyyətlərini qızında görmək istəmişdir:

*Anam öz adını qızına verdi,*
*Anam nəvəsini çox istəyirdi.*
*Körpə nəvəsini qoyub yerində*
*Anam arxayınca dünyadan getdi.*

Biz bunu Dədə Qorqudla müqayisə edə bilərik. Bildiyimiz kimi, "Kitabi- Dədə Qorqud" dastanında Dədə Qorqud Buğac, Basat kimi qəhrəmanlara göstərdiyi şücaətlərinə görə ad verir. Məsələn, birinci boyda oxuyuruq: "Bayandur xanın ağ meydanında bu oğlan cəng etmişdir. Bir buğa öldürmüş sənin oğlun, adı Buğac olsun! Adını mən verdim, yaşını Allah versin!" Dədə Qorqud belə deyir. Ümumiyyətlə, folklorumuzda "Ad vermə" motivləri-ni "Kitabi-Dədə Qorqud" dastanında çox geniş şəkildə görə bilərik. Bəxtiyar Vahabzadə də bu motivləri öz şeirində aydın şəkildə işlətmişdir.

Bəxtiyar Vahabzadənin "Ana hədiyyəsi" şeirində ana Allahdan diləyir ki, öz ömründən kəsib, balasının ömrünə calasın:

*Sən mənim ömrümdən kəsib illəri*
*Balamın ömrünə cala, ay Allah!*

Bu epizodu bizə "Kitabi-Dədə Qorqud"un beşinci boyundan Dəli Domrulun qoca ata-anasından can istəməsi ilə qarşılaşdıra bilərik. Lakin Bəxtiyar Vahabzadənin "Ana hədiyyəsi" şeirində ana öz canını balasına verməyi Allahdan istəyir. Dəli Domrulda isə ata-ana canını öz övladlarına vermirlər.

Əzrayıl aydır: "Mərə, dəli qavat! Dəxinə anam dilərsən! Ağsaqqallı baban yanına vardığın, can vermədi. Ağbirçəkli anan yanına vardın can vermədi".

Ümumiyyətlə, folklorumuzda "can istəmə" motivi vardır ki, biz bunu "Kitabi-Dədə Qorqud" dastanında aydın şəkildə görə bilirik. Bəxtiyar Vahabzadə bu motivi Dədə Qorquddan götürərək öz şeirində mükəmməl şəkildə işlətmişdir.

Bəxtiyar Vahabzadə şeirlərin hər misrasında beşiyin önəmli olduğunu qeyd etmişdir. İlk mənzil, ilk yuva adlandırdığı beşikdə şair dahilərin, qəhrəmanların yetişdiyini qeyd edir. Bu, "Beşik" şeirində yazdığı misralarda öz əksini tapmışdır:

*Qılınc çəkmək üçün ələmə, dərdə*
*Sabirlər, Nəbilər, Babəklər yatır.*

Beşiklə bağlı "Kitabi-Dədə Qorqud" dastanında çox maraqlı epizodlara rast gəlmək olur. Ağacı tərif edərkən Uruz Məhəmməd peyğəmbərin beşiyindən danışır. Ağacdan düzəldilmiş beşik müsəlman ölkələri üçün xüsusi əhəmiyyət daşıyır. Bəxtiyar Vahabzadə də göstərmək istəyir ki, Vətən sevgisi beşikdən başlayır:

*Beşik kökümüzdür...ucalıb ordan*
*Tanıdaq dünyaya öz kökümüzü!*

Öz kökünə bağlı insanlar Vətənə bağlı olar. Ocağını qoruyan Vətənini qoruyar. Bəxtiyar Vahabzadənin şeirlərində bu mövzular öz əksini tapmışdır. Qaynaqlardan gələn məlumatları əks etdirərək beşiyi dünya mədəniyyətinə açılan bir ocağa bənzətmişdir:

*Hər köhnə ocaqda təzə bir ocaq...*
*Ruhum təzələndi, fikrim ucaldı.*

Beləliklə, qeyd etdiyimiz kimi, əgər bir körpənin beşiyi ocaq sayılırsa, uşaq böyüdükcə həmin ocaq Vətənə çevrilir.

Yaradıcılığın əsas məğzini təşkil edən sadəlik, aydınlıq və inandırıcılıq Bəxtiyar Vahabzadə dilinə məxsus əsas xüsusiyyətlərdəndir. Bütün bunlara və burada qeyd edilmiş bir sıra məziyyətlərə görədir ki, Bəxtiyar Vahabzadənin uşaq şeirləri də mənalı olduğu qədər də şirin oxunur.

**Tahirə Vəliyeva**
**AMEA Folklor İnstitutu**
**Folklor və yazılı ədəbiyyat şöbəsinin əməkdaşı**

